AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ

**Maliyyə və iqtisadi nəzəriyyə kafedrası**

# SİLLABUS

# Vergi siyasətinin konseptual əsasları və praktiki aspektləri

**3 kredit**

**fənni üzrə tədris metodoloji istiqamət**

(magistr səviyyəsi təhsil alan maliyyə ixtisası üçün)

**Şifrə: :** 050407–Maliyyə

Payız semestri 2021

Kafedra:Maliyyə və iqtisadi nəzəriyyə

Mühazirə müəllimi: : Əlifov Yaqub Feyzulla oğlu, i.e.n, dosent

E-mail: yaqub alifov@qmail.com

Mob: (070) 240 – 24 – 47

Kabinet: Aqrar iqtisadiyyat fakültəsi,1-çi mərtəbə, 123-cü otaq

Seminar müəllimi : Əlifov Yaqub Feyzulla oğlu

**GƏNCƏ-2021**

Müəllim əvvəlcədən tələbələrə elektron poçtla məlumat verəcək və ya iş vaxtının yenidən təyin edilməsi zərurəti yarandıqda bu barədə məlumat verəcəkdir.

Bu sillabus kursa aid olan bütün praktiki aspektləri, tələbləri və müddətləri əhatə edən əsas sənəddir. Sənəd tələbələr tərəfindən alındıqdan dərhal sonra hərtərəfli oxumalı və semestr ərzində bu sənədin tələblərinə əməl edilməlidir.

Tələbələr WhatsApp qrupu və ya tələbələrin e-poçt qrupu vasitəsilə müəllimlə əlaqə qura bilərlər. Bu e-poçt ünvanı, elektron məlumatların ötürülməsi üçün tələb olunur, burada tələbələr müəllim tərəfindən təqdim oluna fənləəlaqəli informasiyalarla tanış ola bilərlər.

### *Kurs cədvəli*

Dərslər aşağıdakı zamanlarda ənənəvi qayda ilə keçiriləcək:

Bazar ertəsi ,17:00-18:20 (mühazirə) (Alt həftə )
Çərşənbə, 18:30-19:50 (seminar) ( Hər həftə)

## Fənnin təsviri

Vergilər çox qədim zamanlarda, demək olar ki, dövlətlə eyni vaxtda meydana gəlmiş və büdcə gəlirlərinin basilica mənbəyidir. Cəmiyyət inkişaf etdikcə vergidə mövcud sosial-iqtisadi şəraitə uyğun olaraq əsaslı dəyişikliklərə uğramış və yeni növləri meydana gəlmişdir. Qloboilaşma şəraitində ölkələr arasında təsərrüfat əiaqələrinin intensivləşməsi, iqtisadi inteqrasiyanın inkişafı, dünya bazarında rəqabət şəraitinin yaradılması, vergi siyasəti sahəsində əməkdaşhğı zəruri etmişdir. Bütün bunlar vergilərin mahiyyətini, vergi siyasətinin, onun təcrübi əhəmiyyətini, vergi tutmanın tətbiqi üçün nəzəri biliklərin öyrənilməsini və praktiki vərdişlərin əldə edilməsini vacib edir. Bu baxımdan təqdim edilən " Vergi siyasətinin konseptual aspektləri" fənnini magistrlər tərəfindən öyrənilməsi əhəmiyyət kəsb edir.

Proqram ali təhsilin magistr pilləsində " Maliyyə'" ixtisasında təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur.

Kursun mənimsənilməsi üçün 45 saat vaxt ayrılmışdır (15 saat mühazirə, 30 saat seminar). Iki həftədən bir 2 saat olmaqla mühazirə və hər həftə isə 2 saat seminar məşğələsinin kecirilməsi nəzərdə tutulmuşdur.

## Fənnin məqsədi və məzmunu

Fənnin məqsədi magistrlərə vergitutma sahəsində ümumi anlayışlar, Azərbaycan Respublikasının və xarici ölkələrin vergi siyasəti, vergi tutla ilə bağlı nəzəriyyələr, ümumi dövriyyə vergisi, əlavə dəyər vergisi, aksiz vergisi, fiziki şəxslərin gəlir və hüquqi şəxslərin mənfəət vergisi, aktivlərə və əmlaka vergilər, vergi siyasətinin ümumi konsepsiyası, istehsal və istehlakdan tutulan vergilərin xüsusiyyətləri ikiqat verginin və digər məsələlər haqqında biliklər verməkdir.

Bütün bunlar magistrlərə vergitutma sahəsində problem məsələləri öyrənməyə, vergi ilə bağlı nəzəri kateqoriyaları aydınlaşdırmağa və ümumiləşdirməyə imkan verəcəkdir.

## Fənnin proqramı və həftələr üzrə bölünməsi

## Mövzular üzrə saat bölgüsü.

<table>
<tr><th>s/s</th><th>Mövzuların adı</th><th>Mühazirə</th><th>Seminar</th></tr>
<tr><td>1</td><td>Vergi siyasəti və müasir şəraitdə vergitutma prinsiplərinin modifikasiyası</td><td rowspan="2">2</td><td>2</td></tr>
<tr><td>2</td><td>Xarici ölkələrin vergi siyasəti</td><td>2</td></tr>
<tr><td>3</td><td>Vergitutmanın səmərliliyə və ədalətliliyə təsiri</td><td rowspan="2">2</td><td>2</td></tr>
<tr><td>4</td><td>Vergi yükünün paylanması və vergitutmanın nəticələrinin müqayisəsi</td><td>2</td></tr>
<tr><td>5</td><td>Gəlirlərin və xərclərin vergiyə cəlb olunması.Vergitutma və risk</td><td rowspan="2">2</td><td>2</td></tr>
<tr><td>6</td><td>Əmtəələrin optimal vergitutma nəzəriyyəsi</td><td>2</td></tr>
<tr><td>7</td><td>Ümumi dövriyyə vergisi</td><td></td><td>2</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| 8 | Əlavə dəyər vergisi | 2 | 2 |
| 9 | Aksiz vergitutmasının mahiyyəti və onun praktiki əhəmiyyəti | 2 | 4 |
| 10 | Fiziki şəxslərin gəlir vergisinin tutulması xüsusiyyətləri | 2 | 2 |
| 11 | Hüquqi şəxslərin mənfəət vergisi | | 2 |
| 12 | Aktivlərə və əmlaka görə vergilər | 2 | 2 |
| 13 | İkiqat vergitutma və onun aradan qaldırılmasının vacibliyi | | 2 |
| 14 | Beynəlxalq transfert qiymətlər və törəmə şirkətlərin vergitutma problemləri | 1 | 2 |
| | Cəmi | 15 | 30 |

**Fənnin öyrənilməsi üçün metodika**

## Mühazirənin quruluşu

Mühazirə 80 dəqiqə müddətə nəzərdə tutulub . Tələbələr mühazirə zamanı mövzu haqqında müvafiq qeydləri apara bilərlər.Tələbələrin mühazirəni bütövlükdə yazmaq imkanı olmadığına görə , onlar mühazirəni elektron vasitələrdən istifadə edərək yaza bilərlər ( mobil telefon ,noutbuk, kamera və s. ).Elektron vasitələri kurs nümayəndəsi tərəfindən mühazirə başlamamışdan əvvəl hazırlanır.Lakin dərs zamanı elektron vasitələrdən digər məqsədlər üçün istifadə etmək qəti qadağandır. Belə hərəkətə görə tələbə məsuliyyət daşıyır. Mühazirənin elektron variantını mühazirə müəllimindən və ya universitetin elektron kitabxanasından əldə edə bilərsiniz.

Mühazirə zamanı slayd materiallardan geniş istifadə olunacaq. Eyni zamanda paralel olaraq müəyyən məqamlar misallarla izah ediləcəkdir. Mühazirə zamanı tələbə qeyri-müəyyən qalan məqamları düzgün anlamaq üçün dərsin sonunu gözləmədən müəllimə müraciət edə bilərlər. Hər mövzu üzrə müvafiq ədəbiyyat

siyahısı sillabusun axırıncı hissəsində verilmişdir. Əlavə olaraq, tələbələrin internet resuslarından istifadə etməsi məqsədə uyğun sayılır.

Fənn üzrə ayrılmış auditoriya saatlarının 25 % -dən çoxunda iştirak etməyən tələbə həmin fəndən imtahana buraxılmır( ARTəhsil Nazirliyinin əmri. Nazirlər Kabinetinin 24 dekabr 2013 tarixli, 348 saylı qərarı)

**Seminar**

Seminar məşğələlərinin mövzuları və hər mövzu üzrə müəyyən edilən suallar və istifadə ediləcək ədəbiyyat siyahısı əvvəlcədən tələbələrə verilir. Hər mövzu üzrə seminar məşğələsinə 2 saat ayrılır. Məşğələnin əvvəlində ilk olaraq keçmiş seminarın sonunda yeni dərs üçün tələbələrə təqdim etdiyim seminar suallarını, sual – cavab ediləcəkdir.Tələbələr mövzunu nəzəri və praktiki cəhətdən mənimsənilmə səviyyəsini nümayiş etdirməlidirlər.Hər bir tələbə verilən sualları cavablandıran zaman sübut etməlidir ki, keçilən mövzu onun tərəfindən dərk edilib və məntiqi mahiyyəti ona aydındır.

Təqdimatlar və prezentasiya üsulundan geniş istifadə olunacaq. Əvvəlcədən təyin olunmuş mövzuya müvafiq sual tələbələr tərəfindən hazırlanmalı və məşğələ zamanı müəllimin seçdiyi tələbə tərəfindən təqdim olunmalıdır. Çıxış müddəti 5-6 dəqiqədir. Çıxışdan sonra tələbənin mövzusu ətrafında müzakirələr aparılacaq.

Məşğələnin növbəti hissəsində isə praktiki məşğələlərə üstünlük veriləcək . Praktiki məşğələ zamanı müəllim analitik suallar verərək, tələbələrin mövzunun mənimsəmək səviyyəsini yoxlayacaq. Eyni zamanda mövzuya uyğun iqtisadi-riyazi məsələlərin həlli məşğələdə geniş yer tutacaq. Həmçinin tələbələrə hər keçilən mövzuya aid test sualları veriləcəkdir

Tələbələrə tövsiyyəmiz : dərslərdə aktiv iştirak etmək, suallara cavab verməkdən çəkinməmək , sərbəst məntiqi fikirlər yürütmək və səhv etməkdən qorxmamaq. Yadda saxlayın ki, imtahana qədər tələbənin səhv etmək hüququ var.

**Sərbəst işlər**

Sərbəst işlər təyin olunan vaxtda müəllim tərəfindən tələbələrə təqdim ediləcəkdir. Sərbəst iş iki səhifədən az olmamalıdır. Sərbəst iş o zaman qəbul olunur ki, tələbənin işi haqqında tam məlumatı var və o əl yazma formasındadır. Əks təqdirdə iş qəbul olunmur və müvafiq olaraq ümumi baldan çıxılır. Gecikdirilmiş sərbəst işlər qəbul olunmur və qiymətləndirilmir. Lakin növbəti ayın balları hesablanarkən sərbəst işlər yuxarıda göstərilən şərtlərlə yenidən təqdim oluna bilər.

Bundan əlavə olaraq,ədəbiyyat icmalı,qrup və ya fərdi şəkildə təqdimatlar,sorğu müəllimin müəyyənləşdirdiyi digəd formalarda aparıla bilər.İmtahanda iştirak etmədiyiniz halda, səbəbindən asılı olmayaraq tələbəyə “ gəlmədi “ verilir.

**İmtahan**

İmtahan beş sualdan ibarət olaçaqdır.

İmtahanla bağlı yaranan bütün problemlərin həlli üçün yaradılmış imtahan komissiyasına müraciət edilir.

Tələbəyə elan edilmiş fənn qiyməti (mexaniki və ya fənn qiymətinin hesablanmasında səhvlər xaric olmaqla) dəyişilmir. İmtahan qiymətinizdən narazı olduğunuz təqdirdə qiymət elan edildiyi andan Univesitet tərəfindən yaradılan APELYASİYA komissiyasına müraciət edə bilərsiniz.Apelyasiya komissiyası şikayətinizi əsaslı hesab edərsə sizə yenidənimtahan vermək imkanı verilə bilər.

Əgər tələbə üzürlü və ya üzürsüz səbəblərdən dərsdə iştirak etməyibsə o, müəllimlə əvvəlcədən razılaşmaq şərti ilə buraxılmış dərsi ödəyə bilər

Tələbələrdən dürüst və etik davranış tələb olunur.

**Qiymətləndirmə**

Fənn qiymətləri dərsdə iştirak, ev tapşırıqları, aylar üzrə bölünən sərbəst işlər, və mənimsəmə göstəriciləri nəzərə alınmaqla təyin olunacaqdır. Qeyd edilənləri aşağıdakı kimi qruplaşdırmaq olar:

| Fəaliyyət növü | Maksimal qiymətləndirmə | Yekun qiymətləndirmə faizi) |
|---|---|---|
| Dərsdə iştirak | 10 bala qədər | 10% |
| Sərbəst işlər (10 mövzu) | 1 bal hər sərbəst işə | 10% |

| | | |
|---|---|---|
| Seminar nəticələri | 30 bala qədər | 30% |
| İmtahan balı | 50 bala qədər | 50% |
| Yekun kurs balı | 100 bala qədər | 100% |

həftənin hər günü gündüz saatlarında mobil telefon və ya internet vasitəsilə mənimlə əlaqə saxlayaraq cətinlik cəkdiyiniz suallarla müraçiət edə bilərsiz.

## Tövsiyyə olunan ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası.
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi, Bakı, CBS nəşriyyatı, 2011.
3. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi.
4. Azərbaycan Respublikasının Mülki Məcəlləsi.
5. Bağırov D.A. Vergi nəzarəti. Bakı, Təfəkkür, 2001.
6. İqtisadi nəzəriyyə. Q.P. Juravlyovun ümumi redaktəsi ilə (Azərbaycan dilində). "Daşkov və K" nəşriyyat-ticarət korporasiyası, Moskva, 2008.

7. Kəlbiyev Y.A. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri (monoqrafiya). Bakı, Elm, 2005.

8.Kəlbiyev Y.A., Hümbətov T.M. Vergilərin hesablanmasına dair praktikum. Bakı, CBS Poligraphic production, 2008.

9.Kəlbiyev Y.A., Məhərrəmov R.B., Rzayev P.Q. Xarici ölkələrin vergi sistemi. Bakı, İqtisad Universiteti, 2011.

10.Məmmədov F.Ə., Musayev A.F., Sadıqov M.M., Rzayev Z.H., Kəlbiyev Y.A. Vergitutmanin nəzəri və metodoloji əsaslari. Bakı, CBS poligraphic production , 2001.

11.Məmmədov F.Ə., Musayev A.F., Sadıqov M.M., Kəlbiyev Y.A., Rzayev Z.H. Vergilər və vergitutma, II nəşr. Bakı, CBS Poligraphic production, 2010.

12. Musayev A.F., Kəlbiyev Y.A., Hüseynov A.A. Azərbaycan Respublikasının vergi xidməti: islahatlar və nəticələr. Bakı, "Təfəkkür" NPM,2001.

13.MəmmədliO.Q və b.İqtisadi nəzəriyyə . Dərs vəsaiti.Baki-2010